فصلنامه تخصصی "مطالعات تاریخ آذربایجان و ترک" سال ۰۴ ، شماره ۱۳ ، پاییز ۱۴۰۵
"Studies on Azerbaijan and Turk's History" Specialized Journal, year 04, issue 13, Fall 2026
"Azərbaycan və Türk Tarixi Araşdirmalar" ixtisaslaşdirilmiş jurnal, il 04, nömrə 13, Payız 2026
Üçaylık "Azerbaycan ve Türk tarihi araştırmalar" dergisi, yıl 04, sayı 13, Sonbahar 2026

مصاحبه با رضا براهنی در باکو

علی شامیل حسین

ایمیل:

alishamil@yahoo.com

وابستگی:

بخش روابط بین‌الملل مؤسسه فولکلور، آکادمی ملی علوم جمهوری آذربایجان

مترجم:

آی ناز ملک زاده

چکیده:

این متن روایتگر مصاحبه علی شامیل با رضا براهنی، نویسنده، شاعر و منتقد ادبی برجسته ایرانی-آذربایجانی، در سال ۱۹۹۵ در باکو است. براهنی در تبریز (۱۹۳۵/۱۳۱۴) به دنیا آمده و دوران کودکی و نوجوانی‌اش هم‌زمان با سرکوب فرقه‌دموکرات آذربایجان و ممنوعیت زبان ترکی بوده است.

تلخ‌ترین خاطره‌ای که براهنی در مصاحبه بازگو می‌کند، تحقیر وحشیانه‌ای است که در مدرسه‌پروایش تبریز متحمل شده: او به‌خاطر نوشتن مقاله‌ای به زبان ترکی در روزنامه دیواری، مجبور می‌شود با زبانش مرکبِ نوشته را از روی کاغذ بلیسد تا جایی که دهان و بینی‌اش کاملاً آبی می‌شود و نزدیک است از زهرِ مرکب مسموم شود.

براهنی تحصیلات خود را در ترکیه ادامه می‌دهد و در ۲۴ سالگی دکترای ادبیات انگلیسی می‌گیرد. او سال‌ها در دانشگاه تهران ادبیات انگلیسی و ادبیات تطبیقی تدریس کرده و در دانشگاه‌های نیویورک و لندن نیز استاد بوده است. براهنی را پایه‌گذار نقد ادبی مدرن در ایران و از پیشگامان نوسازی در شعر فارسی می‌دانند. تاکنون ۵۶ کتاب از او منتشر شده است.

بخش مهم مصاحبه به پرسش درباره زبان نوشتار براهنی اختصاص دارد. با وجود عشق به آذربایجان و تأکید بر اینکه اندیشه ترکی را به ادبیات فارسی آورده است، براهنی دلیل ننوشتن به ترکی را چنین توضیح می‌دهد که مخاطبانِ نوشته‌هایش در ایران، پاکستان، هند و جهان، فارسی‌خوان هستند و ترجمه آثار فارسی به زبان‌های جهانی ممکن است، اما آثار ترکی مخاطب و مترجم چندانی ندارد. او همچنین می‌گوید که اگر امروز به ترکی بنویسد، مانند یک مبتدی خواهد بود و این به اعتبارش لطمه می‌زند؛ زیرا خلاقیت را نمی‌توان تحمیل کرد.

براهنی آرزوی رهایی آذربایجان از بحران اقتصادی و اعتلای فرهنگ آن را دارد. او در پایان، شعر معروف «ها!» را می‌خواند. پس از این مصاحبه، براهنی به کانادا مهاجرت می‌کند و رئیس باشگاه PEN (اتحادیه نویسندگان) می‌شود. او بعدها با دعوت صابر رستم‌خانلی به باکو می‌آید و دکترای افتخاری دانشگاه اودلار یوردو را دریافت می‌کند. کتابی نیز از او در باکو منتشر می‌شود.

کلمات کلیدی: رضا براهنی، مصاحبه، باکو، ادبیات آذربایجان

استناد (آپا):

شامیل حسین، ع. مترجم: ملک زاده، آ. مصاحبه با رضا براهنی در باکو. ارومیه: فصلنامه تخصصی "مطالعات تاریخ آذربایجان و ترک" سال ۰۴، شماره ۱۳، پاییز ۱۴۰۵. ۸۶۹۰-۳۰۴۱ شاپا

Interview with Reza Baraheni in Baku

Ali Shamil Huseyin

Email:

alishamil@yahoo.com

Affiliation:

International Relations Department Folklore Institution Azerbaijan National Academy of Sciences Baku-Azerbaijan

Translator:

Aynaz Malekzadeh

Abstract:

This text recounts the interview of Ali Shamil with Reza Baraheni, a prominent Iranian-Azerbaijani writer, poet, and literary critic, conducted in Baku in 1995. Baraheni was born in Tabriz (1935/1314 AH) and his childhood and adolescence coincided with the suppression of the Azerbaijan Democratic Party and the ban on the Turkish language.

The bitterest memory Baraheni shares in the interview is the savage humiliation he endured at Parvaish School in Tabriz: for writing an article in Turkish for the school's wall newspaper, he was forced to lick the ink off the paper with his tongue until his mouth and nose turned completely blue, and he nearly suffered ink poisoning.

Baraheni continued his education in Turkey, earning his doctorate in English literature at the age of 24. He taught English literature and comparative literature at the University of Tehran for many years and also served as a professor at New York and London universities. Baraheni is regarded as the founder of modern literary criticism in Iran and a pioneer of innovation in Persian poetry. To date, 56 books of his have been published.

An important part of the interview is devoted to the question of Baraheni's language of writing. Despite his love for Azerbaijan and his emphasis that he brought Turkish thought into Persian literature, Baraheni explains his reason for not writing in Turkish: his readership in Iran, Pakistan, India, and the world consists of Persian readers, and translation of Persian works into world languages is feasible, but Turkish works have few readers or translators. He also states that if he were to write in Turkish today, he would write like a beginner, which would harm his reputation, because creativity cannot be forced.

Baraheni expresses his wish for Azerbaijan to be freed from economic crisis and for its culture to flourish. At the end, he recites his famous poem "Hah!" After this interview, Baraheni emigrated to Canada and became president of the PEN Club (the writers' association). Later, at the invitation of Sabir Rustamkhanli, he came to Baku and received an honorary doctorate from Odlar Yurdu University. A book of his was also published in Baku.

Keywords: Reza Baraheni, Interview, Baku, Azerbaijani Literature

CITATION (APA):

Shamil Huseyin, A. Translator: Malekzadeh, A. Interview with Reza Baraheni in Baku. Urmia: "Studies on Azerbaijan and Turk's history" Specialized Journal, year 04, number 13, Fall 2026, ISSN: 3041-8690.

Rza Bərahəni ilə Bakıda Müsahibə

Əli Şamil

E-poçt:

alishamil@yahoo.com

Mənsubiyyət:

AMEA Folklor İnstitutu

Tərcüməçi:

Aynaz Məlikzadə

Xülasə:

Bu mətn Əli Şamilin 1995-ci ildə Bakıda görkəmli İran-azərbaycanlı yazıçı, şair və ədəbi tənqidçi Rza Bərahəni ilə apardığı müsahibədən bəhs edir. Bərahəni Təbrizdə (1314/1935) anadan olmuş, uşaqlıq və gənclik dövrü Azərbaycan Demokrat Firqəsinin yatırılması və türk dilinin qadağan edilməsi ilə üst-üstə düşmüşdür.

Bərahəninin müsahibədə danışdığı ən acı xatirə, Təbrizdəki Pərvayiş məktəbində çəkdiyi vəhşi təhqirdir: məktəbin divar qəzeti üçün türkcə məqalə yazdığına görə, onu kağızdakı mürəkkəbi dili ilə yalamağa məcbur edirlər, o qədər ki, ağzı və burnu tamamilə göyərir və zəhərlənməkdən az qalır.

Bərahəni təhsilini Türkiyədə davam etdirir və 24 yaşında ingilis ədəbiyyatı üzrə doktorluq dərəcəsi alır. O, uzun illər Tehran Universitetində ingilis ədəbiyyatı və müqayisəli ədəbiyyatdan dərs deyib, Nyu York və London universitetlərində də professor olub. Bərahəni İranda müasir ədəbi tənqidin banisi və fars şeirində yeniliyin öncüllərindən biri hesab olunur. İndiyədək onun 56 kitabı nəşr olunub.

Müsahibənin mühüm hissəsi Bərahəninin yazı dili ilə bağlı suala həsr olunub. Azərbaycana sevgisinə və türk təfəkküründü fars ədəbiyyatına gətirdiyini vurğulamasına baxmayaraq, Bərahəni türkcə yazmamasının səbəbini belə izah edir: onun yazılarının oxucuları İranda, Pakistanda, Hindistanda və dünyada farsdilli oxucudardır və farsca əsərlərin dünya dillərinə tərcüməsi mümkündür, lakin türkcə əsərlərin oxucusu və tərcüməçisi azdır. O həmçinin deyir ki, əgər bu gün türkcə yazsa, yeni başlayan kimi yazacaq və bu onun nüfuzuna zərər vuracaq, çünki yaradıcılığı zorlamaq olmaz.

Bərahəni Azərbaycanın iqtisadi böhrandan qurtulmasını və mədəniyyətinin yüksəlməsini arzulayır. Sonda o, məşhur "Həh!" şeirini oxuyur. Bu müsahibədən sonra Bərahəni Kanadaya mühacirət edir və PEN klubunun (yazıçılar birliyinin) prezidenti seçilir. Sonralar Sabir Rüstəmxanlının dəvəti ilə Bakıya gəlir və Odlar Yurdu Universitetinin fəxri doktoru adını alır. Onun Bakıda kitabı da nəşr olunur.

Açar sözlər: Rza Bərahəni, Müsahibə, Bakı, Azərbaycan Ədəbiyyatı

CITATION (APA):

Şamil, Ə. Tərcüməçi: Məlikzadə, A. Rza Bərahəni ilə Bakıda Müsahibə. Urmiya: “Azərbaycan və Türk tarixi araşdırmalar” İxtisaslaşdırılmış Jurnal, il 04, nömrə 13, Payız 2026, ISSN: 3041-8690.

Ali Şamil

E-posta:

alishamil@yahoo.com

Üyelik:

ANAS Folklor Enstitüsü

Çevirmen:

Aynaz Melikzade

Rıza Berahani ile Bakü'de Mülakat

Özet:

Bu metin, Ali Şamil'in 1995 yılında Bakü'de seçkin İran-Azerbaycanlı yazar, şair ve edebiyat eleştirmeni Rıza Berahani ile yaptığı mülakatı anlatmaktadır. Berahani, Tebriz'de (1935/1314) doğmuş, çocukluk ve gençlik dönemi Azerbaycan Demokrat Fırkası'nın bastırılması ve Türk dilinin yasaklanmasıyla çakışmıştır.

Berahani'nin mülakatta anlattığı en acı hatıra, Tebriz'deki Pervayiş Okulu'nda maruz kaldığı vahşi aşağılamadır: okulun duvar gazetesi için Türkçe bir makale yazdığı için, kağıttaki mürekkebi diliyle yalamaya zorlanır, öyle ki ağzı ve burnu tamamen maviye döner ve mürekkepten zehirlenmekten kıl payı kurtulur.

Berahani eğitimini Türkiye'de sürdürür ve 24 yaşında İngiliz edebiyatı doktorası alır. Uzun yıllar Tahran Üniversitesi'nde İngiliz edebiyatı ve karşılaştırmalı edebiyat dersleri vermiş, New York ve Londra üniversitelerinde de profesör olarak görev yapmıştır. Berahani, İran'da modern edebiyat eleştirisinin kurucusu ve Fars şiirinde yeniliğin öncülerinden biri olarak kabul edilir. Bugüne kadar 56 kitabı yayımlanmıştır.

Mülakatın önemli bir kısmı Berahani'nin yazı diliyle ilgili soruya ayrılmıştır. Azerbaycan'a olan sevgisine ve Türk düşüncesini Fars edebiyatına getirdiğini vurgulamasına rağmen, Berahani Türkçe yazmama nedenini şöyle açıklar: yazılarının okuyucuları İran, Pakistan, Hindistan ve dünyada Farsça okuyanlardır ve Farsça eserlerin dünya dillerine çevrilmesi mümkündür, ancak Türkçe eserlerin okuyucusu ve çevirmeni azdır. Ayrıca, bugün Türkçe yazarsa acemi gibi yazacağını ve bunun itibarına zarar vereceğini söyler, çünkü yaratıcılık zorlanamaz.

Berahani, Azerbaycan'ın ekonomik krizden kurtulmasını ve kültürünün yükselmesini diler. Sonunda meşhur "Hah!" şiirini okur. Bu mülakattan sonra Berahani Kanada'ya göç eder ve PEN kulübünün (yazarlar birliğinin) başkanı seçilir. Daha sonra Sabir Rüstemhanlı'nın davetiyle Bakü'ye gelir ve Odlar Yurdu Üniversitesi'nden fahri doktora alır. Bakü'de bir kitabı da yayımlanır.

Anahtar kelimeler: Rıza Berahani, Mülakat, Bakü, Azerbaycan Edebiyatı

CITATION (APA):

Şamil, A. Çevirmen: Melikzade, A. Rıza Berahani ile Bakü'de Mülakat. Urmiye: Üç Aylık "Azerbaycan ve Türkiye Tarihi Üzerine Araştırmalar" Uzmanlık Dergi, yıl 04, sayı 13, Sonbahar 2026, ISSN: 3041-8690.

Rza Bərahənini sərhəd məftilləri söküləndən sonra tanıdım. Sovet dövründə Azərbaycan mətbuatında Güney Azərbaycan haqqında yazılanları böyük maraq və həvəslə oxuyurdum. Cavad Heyətin Tehranda nəşr etdirdiyi “Varlıq” jurnalının bəzi saylarını da kitabxanada höccələmişdim. Rza Bərahəni haqqında yazıya rast gəlməmişdim.

1990-cı ildən sonra İrandan Azərbaycana rəsmi və qeyri-rəsmi yollarla gedib-gələnlərin sayı gündən günə artı. Arazdan keçərək gizli gələnlərdən bir də Əkbər Zülfü idi. Üsyankar ruhlu, ədəbiyyatımıza, tariximizə böyük sevgisi olan, milli dəyərləri yüksək qiymətləndirən bu gənc həyatını təhlükəyə ataraq Arazı keçib Naxçıvana gəldi. Doğu Azərbaycanın Culfa bəxşinin Siyahparan kəndində doğulmuş Əkbər Zülfü o taydakı hadisələr haqqında bizə geniş bilgi verirdi. Rza Bərahəni haqqında da ilk dəfə ondan eşitdim. Əkbərin farsca yazan türklərə xoş münasibəti olmasa da Rza Bərahənidən və onun əsərlərindən söz düşəndə böyük şövqlə danışardı.

Sərhədlər açılandan sonra bir neçə dəfə İran İslam Respublikasının müxtəlif şəhər və kəndlərinə getmişdim. Rza Bərahəninin yaşadığı Tehran şəhərində yaşayan ziyalılarla görüşüb söhbətləşsəm də nədənsə onunla rastlaşmamışdım.

Onunla ilk dəfə 1995-ci ilin oktyabrında Bakıda görüşdüm. Həmin günlərdə Bakıda Cavad Heyətin 70 illik yubileyi keçirilirdi. Yubileyə İrandan gələnlər arasında Əli Kamali, Savalan (Həsən Məcidzadə), Qulamhüsüyin Beqdeli, Əziz Möhsini, Rza Bərahəni və b. da vardı. Onları evimə qonaq dəvət etmək üçün hazırlır da görmüşdüm. Son anda Əli Kamalinin qəribəlikləri onların bizə gəlmələrini əngəllədi. Əli Kamali xərclərini ödəməklə onları restorana göndərdi, özü isə mənimlə geniş yaradıcılıq söhbəti etmək üçün bizə gəldi. O taydan qaçaq yolla Bakıya gəlmiş gənclər də tez-tez bizə gələrdilər. Əkbər Zülfü, Araz Elsəs, Atilla Maralanlı və b. gənclər Əli.Kamalinin qonağım olacağını bilib dərdləşmək üçün bizə gəldilər. Həmin gecə gah Araz saz çaldı, gah Əli Kamali danışdı, gahdan da biz ona suallar verdik. Məclis səhərədək davam etdi.

Sənər, yəni Oktyabırın 19-da o biri qonaqlarla bir də görüşdük. Ondan Azərbaycan radiosunda apardığım “Qonaq eldən gələr” proqramı üçün müsahibələr aldım. Rza Bərahənidən aldığım müsahibəni yazıçının üslubunu saxlamaqla azacıq redaktylə aşağıda verirəm.

Əli Şamil:-Rza bəy, sizləri xoş gördük. Səhv etmirəmsə Bakıya ilk dəfədir gəlirsiniz. Bakını neçə təsəvvür edirdiniz və necə gördünüz?

Rza Bərahəni:- Mən Bakını çox sevdim. Bakı çox da gözəl şəhərdir. Heç intizarım yox idi bu gözəllikdən. Bakı bir şəkilli şəhərdir. Bakının xalqı da çox mehribandı. Biz ki, burdeydik, bu muddətdə, bir həftənin ərzində, həm akademiyada, həmi ayrı yerlərdə, muzeylərdə, çox məhəbbət elədilər mənə. Müxtəlif adamlar gördüm. Professorlar, yazıçılat hamısının bizə lütfləri vardı. İnşallah ki, ayrı bir səfərlərdə buraya qayıdaq və belə yaxşı adamlarla daha ətraflı söhbət edək.

Əli Şamil:- Rza bəy xahiş edirəm özünüzü Azərbaycan radiosunun dinləyicilərinə tanıdasınız?

Rza Bərahəni:- Mən 1314-də (miladi 1935-ci il), altmış il bundan qabaq Təbrizdə dünyaya gəlmişəm. Atam və anam Təbrizlidir. Xanımım da Təbrizlidir. Dərbağeyi rövşənimiz Təbrizlidir. Təbrizdə dərs oxumuşam, lisansa qədər.

Əli Şamil:- Rza bəy, dünən Azərbaycan Demokratik Firqəsi, yəni Seyid Cəfər Pişəvəri dönəmində məktəblərdə türkcə oxuduğunuzdan, şah qoşunları Azərbaycanda demokratik hərəkatı qan içində boğduqdan sonra dərslərin farsca keçirilməyə başlandığından, bu zaman qarşıya çıxan problemlərdən söhbət etdiniz. Mədrəsədə oxuyarkən hazırladığınız divar qəzetinə görə başınıza gətirilənəri danışdınız. Bu hadisə mənim üçün olduqca ürəksızladan oldu. Xahiş edirəm onu danışasınız. Məsləhət bilsəniz çap etdirər və efirə verərik. Məsləhət bilməsəniz lentdə qala. Bəlkə bir zaman lazım gəldi.

Rza Bərahəni: -Mən Təbrizdə Pərvayiş mədrəsəsində dərs oxuyanda, 1324-25-ci illərdə (mildai-1946-47-ci illər-Ə.Ş) biz orda bir divar qəzetəsi yazardıq ki, mən onun məsuluydum. Uşaqlıqdan ədəbiyyata maraq göstərdiyim üçün görünür məni məktəbin divar qəzetinə məsul təyin etmişdilər. Uşaqlarnan yığışardıq o qəzeti hazırlayıb divara vurardıq.

Şahın dəstur ilə türki dili qadağan olundu. Türkicə danışılması məktəblərdə, rəsmi yerlərdə qadağandı. Belə bir vaxtda dedilər ki, sən yenə də divar qəzetini yaz gətir. Biz divar qəzetini hazırladıq.

Tehrandan gəlib Təbrizdə işləyənlərin bizimlə bir məktəbdə oxuyan uşaqları məqalələrini farsca yazmışdılar. Mənsə məqaləmi türkcə yazmışdım. Məktəbimizin o zamanki müdiri yaxşı adam idi, indi də qalır-sağdı. Amma məktəbə kənardan da bir nəzarət vardı. Nəzarətçi məmurlar məktəbə gəldilər gördülər ki, divar qəzetindəki məqalə türki dilindədir. Çox narahat olurlar ki, bu niyə Azərbaycan türkcəsində yazılıbdı. Soruşurlar ki, bu yazını kim yazıb. Bildilər ki, ana dilində məqaləni mən yazmışam, qəzeti divardan özümə qopartdırıb yerə sərdirdilər. Sonra da məni məcbur elədilər ki, üzüquylu düşəm və qəzetdəki yazını dilimlə

yalıyam. Qəzetdə məqalələr göy mürəkkəblə yazılmışdı. Onu yalayıb təmizləyənə kimi ağız-burunum gömgöy oldu. Az qalmışdı mürəkkəbdən zəhərlənəm. Evə gələn kimi məni müalicə etdirdilər.

Əli Şamil:- Rza bəy, mədrəsəni Təbrizdə farsca bitirdiniz. Türkiyəyə gedərək orada Türkcə oxumağınız Sizin üçün çətin olmadımı?

Rza Bərahəni:- Mədrəsədə, rəsmi yerlərdə farsca danışılmasına baxmayaraq, evdə, bazarda, küçədə, meydanda türkcə danışırdıq. O vaxtdan 50 il keçməsinə baxmayaraq bu gün də Təbrizdə türkcədən başqa bir danışıq eşitməzsən. Mən və yaşıdlarımın bir çoxu evdə gizlicə türkcə kitablar oxuyardıq. Ona görə də Türkiyəyə gedəndə orada heç bir çətinlik çəkmədim. Bəlkə elə buna görə də Türkiyədə Universitetdə birincilərdən oldum. Təbriz türkcəsi ilə İstanbul ağızının bəzi fərqlilikləri vardı. Onu da gülüş, zarafat mövzusuna çevirirdik. Elə fərqliliklər bizim təbrizlilərlə ərdəbillər, urmiyallılar, mərəndlilər arasında da var. Təbrizlilər söyürəm deyirlər, onlar sevirəm söyləyirlər. Bu fərqliliklər bəzən qovğaya da çevrilir. Təbrizli Ərdəbildə, Urmiyada, Mərənddə birisini əzizləmək üçün soyürəm deyəndə onlar hirslənirlər ki, bizi niyə söyürsən.

Türkiyədə dərs oxudum. İngilis ədəbiyyatı doktorası aldım, 24 yaşımda. Türkiyədə dərbaqei əvvəlimci adamam ki, ingilis ədəbiyyatı doktorası almışam. Ordan getmişəm İrana. Əsgərliyə getmişəm, sərbazlıq xidmətimi qurtarmışam. Sonra Tehran Universitetində işləməyə başlamışam.

1343-dən (miladi 1965), təqribən 31 bundan qabaqdan ta 13 il bundan qabağadək oradakı ədəbiyyat fakültəsində ingilis ədəbiyyatını və tətbiqi ədəbiyyat tədris eləmişəm. Aradakı fasilələrdə 5 il Nyu York və London Universitetlərində ingilis ədəbiyyatı professor olmuşam.

Əli Şamil:-Rza bəy, elmi, pedaqoji fəaliyyətinizlə yanaşı bədii yaradıcılıqla da məşğul olursunuz. Özü də olduqca məhsuldar bədii yaradıcılığınız var. İndiyədək necə kitab çap etdiribsiniz?

Rza Bərahəni:-İndiyə kimi 56 kitabım çıxıb, bunun da 5-i romandı, təqribən 4 min səhifə çap olunubdu. Çoxlu ədəbi-tənqidi məqalələrim çap olunub. 1340 dan bu yana necəki deyiblər, İranda müasir elmi ədəbi tənqidin əsasını mən qoymuşam. 14 şeir kitabımı çap elətirmişəm. Bunların bəziləri müxtəlif dillərə çevrilmiş. İngiliscə 3 kitab çap eləmişəm, ingiliscə yazmışam. Bir miqdar şeirim də İngiliscəyə çevrilib. Rusca, İstanbul tükrçəsində, ərəbiyə və başqa dillərdə də çox sayda şeirlərim çap olunub. İspanyol dilində də çap olunan kitablarımdan

biri “Taclı mahnılar” adlanır. Bu kitaba 100 şeir və bir neçə də ədəbi tənqid məqalələrim daxil edilib.

Əli Şamil:-Rza bəy, Azərbaycan Demokratik Firqəsi qan içində böğulandan, yüzlərlə insan nahaqdan öldürüləndən, işgəncələrə məruz qalandan, surgün olunandan, ana dilində yazmaq və oxumaq qadağan edildikdən sonra Siz özünüzü necə toparlayıb bədii yaradıcılıqla məşğul ola bildiniz?

Rza Bərahəni:-Bu təzyiq və təhqirlərə baxmayaraq sonra İranda bir yazıçı nəsli meydana çıxdı ki, onlar Azərbaycanın və Azərbaycanlıların barəsində yazırdılar. Düzdü ki, onlar Azərbaycan türkcəsində yazmırdılar, farsca yazırdılar. Amma onlar Türk təfəkkürünü fars ədəbiyyatına gətirdilər. Bu çox da çətin olmadı. Çünki bu yazı üsulunun qədim ənənəsi vardı. Keçmişlərdə də türkcə düşünüb farsca yazan onlarla şairimiz olmuşdu. Əslində fars ədəbiyyatını zənginləşdirən, ədəbiyyata yenilik gətirən də onlar olmuşdu. Məsnəvi janrını fars ədəbiyyatına türklər gətirdilər. Farslar kiçik bir sahədə, eyni mövzuda bədii çəhətdən bir-birindən fərqli və dolğun yazmağa üstünlük verirdilər. Qəzəl də bu işdə onlara yarıyırdı. Türklərə isə bu çox dar gəlirdi. Onlar uçu-bucağı görünməyən çöllərdə at çapmağa alışmışdılar. Ona görə də şeirdə bir uçsuz-buşaqsızlıq yaratdılar. Fars dillində yazılan hansı bir əsəri versəniz oxuyan kimi deyə bilərəm: bunu türk yazıb, bunu fars. Müəllifin milliyyətini təfəkkür və üslubdan müəyyənləşdirmək o qədər də çətin deyil.

Əli Şamil:- Rza bəy, Siz İran ədəbiyyatşünaslığında Avropa tipli ədəbi tənqidin banisi və Fars şeirində yeniləşmə hərəkatının öncüllərindən bir kimi tanınıbsınız. Kəlimələrin bir biriyle oynaştırır, şeir qəliblərini dağıdır, yeni formalar yaradırsınız. Azərbaycan haqqında farsca bu qədər məhsuldar yaradıcılıqla məşğul olubsunuz, heç türk dilində-ana dilinizdə də əsərləriniz varmı?

Rza Bərahəni:- Bəli, var! Bir miqdarı “Varliq”da çap olunubdu. Bir miqdarı da genə var türk və farsi, onlar da “Varlıq” da çap olunubdu. Axırın kitabım ki, Tehranda çıxıbdı, adı “Xəta bepərvana”dı. Orda çox uzun bir farsi-türki şeirim çap olunubdu ki, fəqət əvvəlində 3-4 sətri farsıdı, qalan 35 sətri, 40 sətri türkidi. Müxtəlif yerlərdə oxumuşam. Gedibdi, o tərəf-bu tərəfə(Yəni müxtəlif ölkələrdə çap olunub-Ə.Ş.) Türki-farsi-ərəbi şeirlərim də var. Tehranda çıxan son şeir kitabımda çap olunan bu şeirin adi da “Həh!”dir. Çox məruf bu şeir nəfəs gəlməx şeiridi.

Dostlarnan oturub şeirlərimdən seçmişik və türkicəyə çevirmişik. 300 səhifədən çoxdu. Yaxınlarda çap olunacaq.

Əli Şamil:-Rza bəy, şeirlərinizi türkcəyə çevirtdirdiyiniz çox gözəl. Şah türkcə danışmağı yasaq etdiyi bir dövrdə Məhəmmədhüseyin Şəhriyar dillər əzbəri olan "Heydər babaya salam"ını, "Səhəndiyyəsini", "Behcədabad" xatirələrini yazdı. Bulud Qaraçorlunun, Həbib Sahirin, Savalanın, Gəncəlinin və b. bütün yaradıcılığı türkcə oldu. İran İslam İnqilabından sonra dil yasağı aradan qaldırıldı. İranda türkcə 20 yaxın qəzet və jurnal çao olundu. Həmin qəzet və jurnalların da sizin kimi ədibə böyük ehtiyacı vardı. İnqilabdab sonra da sizin ana dilinizdə heç bir ciddi əsəriniz yoxdur. Nədən türkcə yazmadınız, üşüqlıqda sizə edilən haqsızlığın ağrısını-acısını canınızdan çıxarmağa çalışmadınız?

Rza Bərahəni:- Yaradıcılıq başqa bir haldır. Onu zorlamaq olmur. Mənim nəsrim və elmi yazılarım fars dilinin məhsuludur. Bu gün özümü zorlayıb türkcə bir hekayə və ya elmi esse yazsam hamı mənə gülər. Çünki oxucunun tanıdığı Rza Bərahəni kimi yaza bilmərəm. Yaradıcılığı yeni başlayan bir yeniyetmə kimi yazaram. Onu da heç kim oxumaz. Bu da Rza Bərahəni adının, nüfuzunun üzərinə bir kölgə salar.

Fars dilində yazadıqlarımı təkcə İranda oxumurlar. Pakistanda, Hindistanda və b. ölkələrdə də oxuyurlar. Fars dilindən ingilis, fransız, alman, ərəb və b. dillərə peşəkar tərcüməçilər də çoxdur. Ona görə farsca yazılan əsərlər dünyaya sürətlə yayılır. Türkcə yazsam onu başqa dillərə kim çevirəcəkdi? İranda neçə adam oxuyacaqdı? İrandan yaşayan türklər də ana dillərində yazılanları oxumurlar və ya oxumağı bacarmırlar, oxuduqlarını başa düşmürlərsə mən kimin üçün yazmalıydım?

Əli Şamil:- Azərbaycandan hansı təəssüratlarla ayrılırsınız?

Rza Bərahəni:- Azərbaycandan doymadan ayrılıram. Mənim böyük arzum budu ki, bu böyük iqtisadi böhran ki, qabağa gəlibdi, bu iqtisadi böhran həlli olsun, tainki, xalq bu çətinlikdən nicat tapsın. Xalq indiyədək mədəniyyətə, ədəbiyyata, şeirə bir belə əhəmiyyət verib, bundan bu yana artıxrax əhəmiyyət versin. Azərbaycanın mədəniyyəti böyük bir mədəniyyətdir. Fəqət bir dənə xəlq eliyə bilər ki, mədəniyyəti qüzəştədə taani veriblər və yüksəldiblər genə də yüksəltsinlər.

İnşallah ayrı bir vaxtda oturub söhbət eyləyəcəyik. Xüsusən şeir və roman üstündə. Bu fürsətdə, qısa bir fürsətdə fikir eləmirəm ki, elmi bir fikir söyləyə bilim. İnşallah ayrı bir fürsətdə yenə də bu barədə sizinən danışacağam. Ayrı bir vaxtda yenə də xidmətinizdə varam.

Əli Şamil:-Çox sağ olun. Sizlərə yeni yaradıcılıq əhval-ruhiyyəsi, mübarizədə dözüm və dəyanət arzulayırıq.

Müsahibənin sonunda Rza Bərahəni böyük şövqlə “Həh!” şeirini söylədi. Ondan aldığım müsahibəni və “Həh!” şeirini Azərbaycan radiosunda “Qonaq eldən gələr” proqramında səsləndirdim. Verilişi lentə köçürtdürüb Rza Bərahəniyə göndərdim.

Rza Bərahəni ana dilində 15-20 şeiri olduğunu söylədi. Mən bir kitab üçün 15-20 şeirin az olduğunu bildirdim. Şərtləşdik ki, ana dilində yazdığı 50-60 şeirini mənə göndərsə Bakıda çap etdirim. Bakıdan gedəndən sonra bir də onunla 1996-cı ilin sentyabrında əlaqə saxlaya bildim. Tanınmış vəkil, həvəskar folklor toplayıcısı və araşdırıcısı Əli Kamalının 1996-cı ilin avqustun 1-də ölüm xəbərini eşitdik. Dəfninə gedə bilməsək də bir nümayəndə heyəti təşkil edərək qırxına getdik. Nümayəndə heyətinə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası sədrinin müavini Kazım Teymurlu, Azərbaycan Yazıçılar Birliyindən Hamlet Qoca, Qarabağ Qaçqınlarına Yardım Komitəsindən Dilsuz Musayev və Azərbaycan Milli Ensiklopediyasının və Azərbaycan Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutun təmsilçisi kimi mən daxil idim.

Tehranda Əli Kamalinin yas mərasiminə Rza Bərahəni gəlməmişdi. Dostlar vəziyyətinin yaxşı olmadığını, təqib və təzyiqlər altında olduğunu söylədilər. Mən evlərinə zəng vurub telefonda xeyli danışdım. Şeirlərini göndərmədiyindən gileyləndim. Vəziyyəti heç də xoşagələn olmadığını, başı bərk qarışıq olduğunu söylədi və vəd etdi ki, başı ayılan kimi ana dilində yeni şeirlər də yazaraq mənə göndərəcək.

Xeyli sonra Rza Bərahəninin Kanadaya mühacirət etdiyindən xəbər tutdum. İranda modernizmin banisi sayılan ədib Kanadada PEN kuluba, yəni yazıçılar birliyinə rəhbər seçilir.

1968-ci ildə İranda “Kişilik tarixi” kitabını çap etdirə bilməyən, “Hakim və məhkum mədəniyyət” məqaləsinə görə həbs olunaraq 9 ay zindan da saxlanan, İranın yenilikçi ədiblərindən Qulamhüseyin Səidi, Cəlal Aləhməd, Əhməd Şamlu ilə birlikdə yazıçılar birliyi yaradan Rza Bərahəni İran İslam İnqilabından əvvəl də şah rejimindən bezib mühacirətə gedibmiş. İnqilabdan sonra vətənə dönsə də yenə əvvəliki sıxıntılar, təziqlər, həbslərlə üzləşmiş, yazdıqlarının hamısını çap etdirə bilməmişdi.

Kanadaya son mühacirətindən bir-iki il sonra mənə bilgisayarda yazılmış bir kitab göndərdi ki, Bakıda çap etdirim. Kitaba Rza Bərahəninin farsca şeirlərinin Türkiyə türkcəsinə çevrmələri daxil edilmişdi. Şeirləri kimin çevirdiyi də məlum deyildi. Mən həmin kitabı çap etdirə bilməyəcəyimi yazdım və bildirdim ki, Azərbaycan türkcəsində yazılmış orijinal şeirlərini çap etdirməyə həmişə hazıram.

Sonralar onun “Kələbək” adlı şeir kitabını Türkiyədə gördüm. “Dünya kitabları” nəşriyatında 2004-cü ildə çap olunmuş bu kitabdakı şeirləri Haşim Hüsrevşahi Türkiyə türkcəsinə çevirmişdi. Mənə göndərilən kitabdakı şeirlərin çoxunu “Kələbək” kitabında gördüm.

Rza Bərahəninin diktafonuma söylədiyi şeiri aşağıda verirəm.

“Həh!” şeiri

Həmişe ma qurestanhaye
no miyaferinim
Əmma dele məra bebin ke dər
gerove qurestanhaye kuhne əst
Ki kaşan dər xak bərdar mişəvənd
Zəman keşiyde cahan rabetubre.
Və nagahan kəsi əz rah miresəd
Hezareye digər və bər məzar sənge
səxti nə nam neşani mi əfzayə
və dər bərabəri an dodəs bərsine
bi səng minə gərə şəbihe mən
bəxe delemən əzan qurestan ha braxs
ber xahət xas
hələm hələm hələ ləm ləm hələ həl hələ həl həl
və ba zəbani çəşm bi niyə mən migery
çera ke geriye esaletdare
der zəbani in do çeşm
Və geçti bir gecə,
geçtikim ki, bir bülbül idi
və ya ki, bir gül idi.
Hələyi həl hələ gəl gəl
Yapış, yapış qolumdan,
gər kiflisən, gülüm sən əgər
Hələm, hələm, həl hələ!
Gəl yapış əlimdən, gər kiflisən, gülüm.
Hələm hələm hələ ləm, yapış əlimdən əgər.

Və nagahan yekiy əzra mirəsən

Qavalçalan, oxuyan dağ ətəyində
Bağın dibində, sənin əksini tapanda
O əksi basanda bağrına gizlin,
“Dilim!”, “Dilim!” diyən heyf olmuşum,
Yazığım Gözəl dilim,
necə bağrımda yandı,
lap külə döndü
Şəbi he mən, şəbi he mən!

Zaman keşiyində, cahanda betu ubre
Yapış qolumdan,
kiflisən gülüm, sən əgər...
Qucaxladım, nə gözəlsən,
dedi: demə, mən ölüm
Dedim: nə səndə ölüm var,
nə vardı məndə ölüm!
O ağladı, qan ağladı.
ələkdi gözlərin ay gül,
qızıl gül yenə ələnir
sənin bu yaşların üryan canım qana bələnir.
Dedi: demə mən ölüm,
Dedi: demə mən ölüm.
Dedim: yapış, yapış qolumdan,
Əgər kiflisən gülüm.
Şəbi he mən, şəbi he mən

Hələm, hələm, həla həl ləm həla həl hələ həl həl gülüm,
Bu çəngi Rudəti çalsın,
Məlukun oğlu da gəlsin!
O nazlı dirçəki çalsın
Tarım da Şəhriyar alsın,
mənim yanımda otursun!

Lahac Sadıx qavalın

ilə bərabərimdə otursun!

Və tabə zab ilə getsin,

və Bəlx Təbrizə gəlsin

Və çal qaval səsi qalxsın,

və çal qaval səsi qalsın

Onda mən diyərəm Həh!

Hələm, hələm, həla həl ləm həla həl hələ həl həl

Və indi mən diyən oldu, və indi mən diyən oldu.

Kəlamların mənə baxsın,

Dağın dibində o əsir basanda bağrıma gizlin

Və indi mən diyən oldu,

qan ağladıx, hamımız qan ağladux!

Dəfe dili, mən və quuşkom to

be in toprak yeki bin

dəfe dili mən əzan qur və quuşkon to be in toprak ke hezar sal sedayi çal xeyi əzan viran ke hezar sal

yeki besine fe şord əkse kohneyi sureti tora təbi

be baxt girist hay hay şəbi he mən hizar sal

Hələm, hələm, həla həl ləm həla həl hələ həl həl

əza qurestan ha

və berəxs dən bər xa həd xast

Dədəm,

dədən,

Dədə Qorqut dedux,

dedux hamımız!

Və əl-ələ, əl hələm hələ, əl-ələ verdux.

O yollarun hamısın bağladux

Bizar arsan qan ağladux hamımız.

Hamımız qan ağladux, hamımız hezar sal!

Hələm, hələ Həh!

Ancaq mənim ürəyim köhnə bir məzarlığa bağlıdır

Keçmişdə əkdiyimiz
Bu gün torpaqdan
Varlanır.
Bir torbada zaman dünyanı
Daşıyarkən
Çatdı qəfildən bir an
Bir kəs
Minillik adsız, ünvansız
Bir daşa tapındıq
əllərimi bərk-bərk köksümə sıxaraq
dayandıq mənim kimi,
sanki ürəyim
köhnə məzardan gəlib mənə
çatarkən.
Rəqs eyləyərək oxudum
hələm hələm hələ ləm ləm həla həl hələ həl həl

Ancaq burnumun ucu göynər mənim
Ürəyimdə ağlar, mənim dilimdə oxşar,
Mənim o iki ağlar gözlərimdə
hələm hələm hələ ləm ləm həla həl hələ həl həl
Sənin köhnə şəklindən üz döndərmədən
Ağladı hönkür-hönkür.
Mənim kimi mən.

Şeirdə farsca olan misraları Aqşin Ağkəmərli aşağıdakı kimi tərcümə etmişdir:

Ancaq mənim ürəyim köhnə bir məzarlığa bağlıdır
Keçmişdə əkdiyimiz
Bu gün torpaqdan
Varlanır.
Bir torbada zaman dünyanı
Daşıyarkən

Çatdı qəfildən bir an
Bir kəs
Minillik adsız, ünvansız
Bir daşa tapındıq
əllərimi bərk-bərk köksümə sıxaraq
dayandıq mənim kimi,
sanki ürəyim
köhnə məzardan gəlib mənə
çatarkən.
Rəqs eyləyərək oxudum
hələm hələm hələ ləm ləm həla həl hələ həl həl
Ancaq burnumun ucu göynər mənim
Ürəyimdə ağlar, mənim dilimdə oxşar,
Mənim o iki ağlar gözlərimdə
hələm hələm hələ ləm ləm həla həl hələ həl həl
Sənin köhnə şəklindən üz döndərmədən
Ağladı hönkür-hönkür.
Mənim kimi mən.

Sözardı: *2009-cu ilin payızında İsvecdə yaşayan Əlirza Ərdəbili mənə zəng vuraraq Rza Bərahəninin bir qurup mühacir şairlə birlikdə Azərbaycana gələcəyini və məni də görmək istədiyini söylədi. Təəssüflə bildirdim ki, mən həmin günlərdə Abant İzzet Baysal Üniversitesi Bolu Halk Kültürünü Araştırma və Uygulama Mərkəzi (BAMER), Azərbaycan Respublikası Milli Elimlər Akademiyası Folklor İnstitutu, Özbəkistan Respublikası Fənlər Akademiyası Dil və Ədəbiyyat İnstitutu ilə birgə Türkiyənin Bolu şəhərində keciracəyi I Uluslararası Köroğlu, Bolu tarih və kültürü simpozyumunda iştirak etdiyimdən onlarla görüşə bilməyəcəm.*

Bakıya dönəndə qəzetlərdən oxudum ki, Dünya Azərbaycanlıları Konqresinin (DAK) həmsədri, millət vəkili Sabir Rüstəmxanlının dəvətilə Azərbaycanda səfərdə olan Rza Bərahani Odlar Yurdu Universitetinin fəxri doktoru seçilib.

Bakıda xalq şairi Sabir Rüstəmxanlının naşirliyi, "Bakı-Təbriz" dərgisinin baş yazarı Məsiağa Məhəmmədinin tərtibçi-redaktorluğu ilə "Qanun" nəşriyyatında **"Rza Bərahani: Şeirlər, müsahibələr, araşdırma" adlı** 79 səhifəlik bir kitab çap olunub. O, görüşlərdə 2500 illik bir dövrü əhatə edən üç hissəli "Ayaz" rumanı üzərində işlədiyini, bu əsərləri əsasında 6

tamaşa hazırlanaraq Fransada göstərildiyini söyləyib. Romanının yazılma texnikasından, bədii yaradıcılıqdan söz açarkən deyib ki, “Mən tarix yazıram, ancaq öz bildiyim kimi”.

Ədib ana dilində yazmasa da milli düşüncəsini farsca, ingiliscə yazdığı əsərlərində oxucuya çatdırır. Onun ana dilində yazıb-yaradan, inqilabçi şair Əlirza Oxayın İran zindanında faciəli ölümünü təsvir edən əsəri Azərbaycanlı gənclərin sevə-sevə oxuduğu əsərlərdəndir

مصاحبهٔ رضا براهنی در باکو

علی شامیل

رضا براهنی را پس از باز شدن مرزها شناختم. در دوران شوروی، مطالب منتشرشده در مطبوعات آذربایجان دربارهٔ آذربایجان جنوبی را با علاقه و شوق فراوان می‌خواندم. چند شماره از مجلهٔ «وارلیق» که جواد هئیت در تهران منتشر می‌کرد، در کتابخانه جمع‌آوری کرده بودم. اما نوشته‌ای دربارهٔ خود رضا براهنی ندیده بودم.

از سال ۱۹۹۰ به بعد، شمار افرادی که به‌طور رسمی یا غیررسمی از ایران به آذربایجان رفت‌وآمد می‌کردند، روزبه‌روز افزایش یافت. یکی از کسانی که مخفیانه از ارس گذشت و آمد، اکبر ذوالفقار (ظُلفو) بود. این جوان سرکش که عشق فراوانی به ادبیات و تاریخ ما داشت و برای ارزش‌های ملی احترام زیادی قائل بود، جان خود را به خطر انداخت و از ارس گذشت و به نخجوان آمد. اکبر ذوالفقار که در روستای سیاهپاران از بخش جلفای آذربایجان شرقی به دنیا آمده بود، اطلاعات گسترده‌ای دربارهٔ وقایع آن سوی مرز به ما می‌داد. دربارهٔ رضا براهنی نیز نخستین بار از او شنیدم. اگرچه اکبر به ترک‌های فارسی‌نویس خوش‌بین نبود، اما هرگاه صحبت از رضا براهنی و آثارش به میان می‌آمد، با شور و شوق فراوان از او سخن می‌گفت.

پس از باز شدن مرزها، چندین بار به شهرها و روستاهای مختلف جمهوری اسلامی ایران سفر کردم. با روشنفکران ساکن تهران، شهری که رضا براهنی در آن زندگی می‌کرد، دیدار و گفت‌وگو کردم، اما به‌دلیلی نامعلوم با خود او برخورد نکردم.

نخستین بار در اکتبر ۱۹۹۵ در باکو با او دیدار کردم. در آن روزها، جشن هفتادسالگی جواد هئیت در باکو برگزار می‌شد. میان کسانی که از ایران به این جشن آمده بودند، علی کمالی، ساوالان (حسن مجیدزاده)، غلامحسین بَقدِلی، عزیز محسنی، رضا براهنی و دیگران نیز حضور داشتند. تصمیم داشتم همه را به خانه دعوت کنم، اما در لحظهٔ آخر، رفتارهای عجیب علی کمالی مانع از آمدن آن‌ها شد. علی کمالی هزینهٔ آن‌ها را پرداخت و به رستوران فرستاد، اما خودش برای گفت‌وگوی مفصل دربارهٔ ادبیات و خلاقیت به خانهٔ ما آمد. از آن سوی مرز نیز جوانانی که مخفیانه به باکو آمده بودند، مرتب به دیدن ما می‌آمدند. اکبر ذوالفقار، اراز السس، آتیلا مارالانلی و دیگر جوانان، وقتی فهمیدند علی کمالی مهمان ما خواهد بود، برای هم‌دردی به خانهٔ ما آمدند. آن شب، گاهی اراز ساز می‌زد، گاهی علی کمالی سخن می‌گفت و گاهی ما از او سؤال می‌پرسیدیم. مجلس تا صبح ادامه یافت.

روز بعد، یعنی ۱۹ اکتبر، دوباره با مهمانان دیگر دیدار کردیم. از آن‌ها برای برنامهٔ «قوناق اِلدَن گلَر» (مهمان از دیار می‌آید) که در رادیوی آذربایجان اجرا می‌کردم، مصاحبه گرفتم. مصاحبهٔ رضا براهنی را با حفظ سبک نویسنده و اندکی ویرایش، در زیر ارائه می‌دهم.

علی شامیل: – آقای براهنی، خوش آمدید. اگر اشتباه نکنم، نخستین بار است که به باکو می‌آیید. باکو را چگونه تصور می‌کردید و چگونه دیدید؟

رضا براهنی: – من باکو را بسیار دوست داشتم. باکو شهری بسیار زیباست. هیچ انتظاری از این زیبایی نداشتم. باکو یک شهر تصویری است. مردم باکو نیز بسیار مهربان هستند. ما که اینجا بودیم، در این مدت، طی یک هفته، هم در آکادمی و هم در مکان‌های دیگر، موزه‌ها، محبت زیادی به من کردند. افراد مختلفی را دیدم. اساتید، نویسندگان، همه به ما لطف داشتند. ان‌شاءالله که در سفرهای دیگری به اینجا برگردیم و با این افراد خوب گفت‌وگوهای مفصل‌تری داشته باشیم.

علی شامیل: – آقای براهنی، لطفاً خودتان را به شنوندگان رادیوی آذربایجان معرفی کنید.

رضا براهنی: – من در سال ۱۳۱۴ (۱۹۳۵ میلادی)، شصت سال پیش، در تبریز به دنیا آمدم. پدر و مادرم تبریزی هستند. همسرم نیز تبریزی است. فرزند ارشدمان هم تبریزی است. در تبریز درس خوانده‌ام تا مقطع لیسانس.

علی شامیل: – آقای براهنی، دیروز دربارهٔ دوران فرقهٔ دموکرات آذربایجان، یعنی دوران سید جعفر پیشه‌وری، و اینکه در مدارس به ترکی درس می‌خواندید، و پس از آنکه نیروهای شاه جنبش دموکراتیک را در خون خفه کردند، دروس به فارسی برگزار شد و مشکلاتی که پیش آمد، صحبت کردید. همچنین از مشکلاتی که به خاطر روزنامه دیواری که در مدرسه تهیه کرده بودید برایتان پیش آمد، گفتید. این واقعه برای من بسیار ناراحت‌کننده بود. لطفاً آن را بازگو کنید. اگر صلاح می‌دانید، منتشر و پخش می‌کنیم. اگر صلاح نمی‌دانید، روی نوار می‌ماند. شاید روزی کار آمد.

رضا براهنی:– وقتی در تبریز در مدرسهٔ پروایش درس می‌خواندم، در سال‌های ۱۳۲۴–۱۳۲۵ (۱۹۴۶–۱۹۴۷ میلادی)، ما در آنجا یک روزنامه دیوار می‌نوشتیم که من مسئول آن بودم. از کودکی به ادبیات علاقه داشتم، به‌همین‌سبب مرا مسئول دیوارنوشتهٔ مدرسه کردند. با بچه‌ها جمع می‌شدیم و آن روزنامهٔ دیواری را تهیه و روی دیوار نصب می‌کردیم.

به دستور شاه، زبان ترکی ممنوع شد. صحبت کردن به ترکی در مدارس و مکان‌های رسمی ممنوع بود. در چنین شرایطی گفتند که باز هم روزنامهٔ دیواری را بنویس و بیاور. ما روزنامهٔ دیواری را تهیه کردیم.

کسانی که از تهران آمده بودند و در تبریز کار می‌کردند، بچه‌هایشان که با ما در یک مدرسه درس می‌خواندند، مقاله‌های خود را به فارسی نوشته بودند. اما من مقاله‌ام را به ترکی نوشتم. مدیر مدرسهٔ ما در آن زمان آدم خوبی بود، هنوز هم زنده است. اما مدرسه یک ناظر بیرونی نیز داشت. بازرسان به مدرسه آمدند و دیدند که مقالهٔ روزنامهٔ دیواری به زبان ترکی است. بسیار ناراحت شدند که چرا به ترکی آذربایجانی نوشته شده است. پرسیدند که این نوشته را کی نوشته

است. فهمیدند که من مقاله را به زبان مادری نوشته‌ام. روزنامه را از دیوار کندند و روی زمین پهن کردند. سپس مرا مجبور کردند که به رو بخوابم و نوشتهٔ روی روزنامه را با زبانم بلیسم. مقاله‌ها با مرکب آبی نوشته شده بود. تا آن را لیسیدم و پاک کردم، دهان و بینی‌ام کاملاً آبی شد. نزدیک بود از مرکب مسموم شوم. به محض رسیدن به خانه، مرا معالجه کردند.

علی شامیل: – آقای براهنی، مدرسه را در تبریز به فارسی تمام کردید. رفتن به ترکیه و درس خواندن به ترکی در آنجا برایتان دشوار نبود؟

رضا براهنی: – با وجود اینکه در مدرسه و مکان‌های رسمی به فارسی صحبت می‌شد، در خانه، بازار، خیابان و میدان به ترکی حرف می‌زدیم. با وجود گذشت ۵۰ سال از آن زمان، امروز هم در تبریز جز ترکی زبانی نمیشنوید. من و بسیاری از هم‌سالانم در خانه مخفیانه کتاب‌های ترکی می‌خواندیم. به‌همین‌دلیل وقتی به ترکیه رفتم، هیچ مشکلی نداشتم. شاید به همین دلیل بود که در دانشگاه ترکیه جزء اولین‌ها شدم. ترکی تبریزی با گویش استانبولی تفاوت‌هایی دارد. ما آن را به شوخی و طنز تبدیل می‌کردیم. چنین تفاوت‌هایی بین ما تبریزی‌ها با اردبیلی‌ها، اورمیه‌ای‌ها و مرندی‌ها نیز وجود دارد. تبریزی‌ها می‌گویند «سویورم» (دوست دارم)، آن‌ها می‌گویند «سِویرم». این تفاوت‌ها گاهی به دعوا هم می‌کشد. وقتی یک تبریزی در اردبیل، اورمیه یا مرند برای ابراز محبت به کسی می‌گوید «سویورم»، آن‌ها ناراحت می‌شوند که چرا ما را دشنام می‌دهی.

در ترکیه درس خواندم. دکترای ادبیات انگلیسی گرفتم، در ۲۴ سالگی. در ترکیه من اولین کسی هستم که دکترای ادبیات انگلیسی گرفته‌ام. از آنجا به ایران رفتم. به سربازی رفتم و خدمت را تمام کردم. سپس در دانشگاه تهران شروع به کار کردم.

از سال ۱۳۴۳ (۱۹۶۵)، تقریباً ۳۱ سال پیش، تا ۱۳ سال پیش، در دانشکدهٔ ادبیات آنجا ادبیات انگلیسی و ادبیات تطبیقی تدریس کردم. در فاصلهٔ این سال‌ها، ۵ سال در دانشگاه‌های نیویورک و لندن استاد ادبیات انگلیسی بودم.

علی شامیل: – آقای براهنی، علاوه بر فعالیت علمی و آموزشی، به کار هنری نیز مشغول هستید و بسیار پربار بوده‌اید. تاکنون چند کتاب منتشر کرده‌اید؟

رضا براهنی: – تاکنون ۵۶ کتاب من منتشر شده است که ۵ تای آن رمان است و تقریباً ۴ هزار صفحه چاپ شده است. مقاله‌های ادبی-انتقادی زیادی از من چاپ شده است. از سال ۱۳۴۰ به بعد، همان‌طور که گفته‌اند، من پایه‌گذار نقد ادبی علمیِ مدرن در ایران بوده‌ام. ۱۴ کتاب شعر منتشر کرده‌ام. برخی از آن‌ها به زبان‌های مختلف ترجمه شده است. ۳ کتاب به انگلیسی چاپ کرده‌ام که به انگلیسی نوشته‌ام. تعدادی از شعرهای من نیز به انگلیسی ترجمه شده است. شعرهای زیادی از من به روسی، ترکی استانبولی، عربی و زبان‌های دیگر ترجمه شده است. یکی از کتاب‌های من که به اسپانیایی چاپ شده، «ترانه‌های تاج‌دار» نام دارد. این کتاب شامل ۱۰۰ شعر و چند مقالهٔ نقد ادبی است.

علی شامیل: – آقای براهنی، پس از آنکه فرقهٔ دموکرات آذربایجان در خون خفه شد، صدها نفر بی‌گناه کشته، شکنجه و تبعید شدند و نوشتن و خواندن به زبان مادری ممنوع گردید، چگونه خود را جمع‌وجور کردید و به کار هنری ادامه دادید؟

رضا براهنی: – با وجود این فشارها و تحقیرها، بعدها در ایران نسلی از نویسندگان پدید آمد که دربارهٔ آذربایجان و آذربایجانی‌ها می‌نوشتند. درست است که آن‌ها به ترکی آذربایجانی نمی‌نوشتند، بلکه به فارسی می‌نوشتند. اما اندیشهٔ ترکی را به ادبیات فارسی آوردند. این کار چندان دشوار نبود، زیرا این شیوهٔ نگارش سنتی دیرینه داشت. در گذشته نیز ده‌ها شاعر داشتیم که به ترکی می‌اندیشیدند و به فارسی می‌نوشتند. در حقیقت، آن‌ها بودند که ادبیات فارسی را غنا بخشیدند و نوآوری کردند. قالب مثنوی را ترک‌ها به ادبیات فارسی آوردند. فارسی‌ها در حوزه‌ای کوچک و با موضوعی واحد، به نوشتن آثار متفاوت و پرمایه از نظر هنری ترجیح می‌دادند. غزل نیز در این کار به آن‌ها کمک می‌کرد. اما این برای ترک‌ها بسیار محدود بود. آن‌ها به تاختن در دشت‌های بی‌کران عادت داشتند. از این رو، در شعر بی‌کرانگی آفریدند. هر اثر فارسی‌ای را که به من بدهید، به محض خواندن می‌توانم بگویم: این را ترک نوشته، این را فارس. تشخیص ملیت نویسنده از روی اندیشه و سبک چندان دشوار نیست.

علی شامیل: – آقای براهنی، شما در نقد ادبی ایران، پایه‌گذار نقد ادبی به سبک اروپایی و از پیشگامان جنبش نوسازی در شعر فارسی شناخته می‌شوید. کلمات را به هم می‌آمیزید، قالب‌های شعری را می‌شکنید و فرم‌های جدید می‌آفرینید. با وجود این همه خلاقیت پربار دربارهٔ آذربایجان به فارسی، آیا آثاری هم به زبان ترکی، یعنی زبان مادری‌تان، دارید؟

رضا براهنی: – بله، دارم! تعدادی در «وارلیق» چاپ شده است. تعدادی نیز به ترکی و فارسی، که آن‌ها هم در «وارلیق» چاپ شده‌اند. آخرین کتاب من که در تهران منتشر شده، «خطا به پروانه» نام دارد. در آن، یک شعر بسیار بلند ترکی-فارسی چاپ شده که ۳–۴ سطر اول آن فارسی و ۳۵–۴۰ سطر باقی‌مانده ترکی است. آن را در جاهای مختلف خوانده‌ام و در کشورهای گوناگون چاپ شده است. شعرهای ترکی-فارسی-عربی هم دارم. در آخرین کتاب شعر من که در تهران منتشر شده، شعری به نام «ها!» چاپ شده است که بسیار معروف است و شعری نفس‌گیر است.

با دوستان نشستیم و از شعرهایم انتخاب کردیم و به ترکی ترجمه کردیم. بیش از ۳۰۰ صفحه است. به‌زودی منتشر خواهد شد.

علی شامیل: – آقای براهنی، اینکه شعرهایتان را به ترکی ترجمه کرده‌اید بسیار خوب است. در دوره‌ای که شاه صحبت به ترکی را ممنوع کرده بود، محمدحسین شهریار «سلام بر حیدربابا»، «سهندیّه» و خاطرات «بهجت‌آباد» را نوشت که بر زبان‌ها جاری است. تمام آثار بولود قاراچورلو، حبیب ساحر، ساوالان، گنجه‌ای و دیگران به ترکی بود. پس از انقلاب اسلامی ایران، ممنوعیت زبان برداشته شد. در ایران حدود ۲۰ روزنامه و مجله به ترکی منتشر شد. آن روزنامه‌ها و مجله‌ها نیز مانند شما به یک ادیب بزرگ نیاز داشتند. پس از انقلاب نیز شما هیچ اثر جدی به زبان مادری‌تان ندارید. چرا به ترکی ننوشتید؟ چرا سعی نکردید درد و رنج بی‌عدالتی‌ای را که در کودکی به شما روا داشته شد، از وجودتان بیرون کنید؟

رضا براهنی: – خلاقیت حال و هوای دیگری دارد. نمی‌توان آن را تحمیل کرد. نثر و نوشته‌های علمی من محصول زبان فارسی است. اگر امروز خود را مجبور کنم داستانی یا مقاله‌ای علمی به ترکی بنویسم، همه به من می‌خندند. چون نمی‌توانم مانند رضای براهنی‌ای که خواننده می‌شناسد، بنویسم. مثل یک نوجوان تازه‌کار خواهم نوشت و کسی هم آن را نمی‌خواند. این کار سایه‌ای بر نام و اعتبار رضا براهنی خواهد انداخت.

آنچه به فارسی می‌نویسم را نه تنها در ایران، بلکه در پاکستان، هند و کشورهای دیگر نیز می‌خوانند. مترجمان حرفه‌ای زیادی هستند که از فارسی به انگلیسی، فرانسه، آلمانی، عربی و دیگر زبان‌ها ترجمه می‌کنند. به‌همین‌دلیل آثار نوشته‌شده به فارسی به سرعت در جهان منتشر می‌شوند. اگر به ترکی بنویسم، چه کسی آن را به زبان‌های دیگر ترجمه خواهد کرد؟ چند نفر در ایران آن را می‌خوانند؟ ترک‌های ساکن ایران نیز نوشته‌های به زبان مادری خود را نمی‌خوانند یا نمی‌توانند بخوانند، و اگر هم بخوانند، نمی‌فهمند؛ پس من برای چه کسی باید بنویسم؟

علی شامیل: – با چه تأثراتی از آذربایجان جدا می‌شوید؟

رضا براهنی: – سیراب‌نشده از آذربایجان جدا می‌شوم. آرزوی بزرگ من این است که این بحران بزرگ اقتصادی که پیش آمده، حل شود تا مردم از این سختی نجات یابند. مردم تاکنون به فرهنگ، ادبیات و شعر چنین اهمیتی داده‌اند، از این به بعد بیشتر اهمیت بدهند. فرهنگ آذربایجان فرهنگی بزرگ است. اما تنها مردم می‌توانند آن را به گذشته‌ای که به آن داده‌اند و آن را بالا برده‌اند، بازگردانند و دوباره بالا ببرند.

ان‌شاءالله که در زمان دیگری نشسته و گفت‌وگو خواهیم کرد. به‌ویژه دربارهٔ شعر و رمان. در این فرصت کوتاه فکر نمی‌کنم بتوانم فکری علمی بیان کنم. ان‌شاءالله در فرصتی دیگر دوباره دربارهٔ این موضوع با شما صحبت خواهم کرد. در زمان دیگری نیز در خدمت شما هستم.

علی شامیل: – بسیار سپاسگزارم. برای شما روحیهٔ خلاقانهٔ جدید، استقامت و پایداری در مبارزه آرزو می‌کنیم.

در پایان مصاحبه، رضا براهنی با شور و شوق فراوان شعر «ها!» را خواند. من مصاحبه و شعر «ها!» را در برنامهٔ «قوناق اِئلدَن گلَر» (مهمان از دیار می‌آید) از رادیوی آذربایجان پخش کردم. برنامه را روی نوار کپی کردم و برای رضا براهنی فرستادم.

رضا براهنی گفت که ۱۵ تا ۲۰ شعر به زبان مادری دارد. گفتم که برای یک کتاب، ۱۵ تا ۲۰ شعر کم است. قرار گذاشتیم که اگر ۵۰ تا ۶۰ شعرش را به زبان مادری برایم بفرستد، در باکو چاپ کنم. پس از رفتنش از باکو، دوباره در سپتامبر ۱۹۹۶ توانستم با او تماس بگیرم. خبر درگذشت علی کمالی، وکیل معروف و گردآورنده و پژوهشگر فولکلور، را در اول اوت ۱۹۹۶ شنیدیم. اگرچه نتوانستیم در مراسم تدفین شرکت کنیم، اما هیئتی تشکیل دادیم و برای چهلمین روز به آنجا رفتیم. در این هیئت، کاظم تیمورلو (معاون رئیس کنفدراسیون اتحادیه‌های کارگری آذربایجان)، هملت قوجا (از اتحادیهٔ نویسندگان آذربایجان)، دیلسوز موسایف (از کمیتهٔ کمک به آوارگان قره‌باغ) و من به‌عنوان نمایندهٔ دایرةالمعارف ملی آذربایجان و مؤسسهٔ ادبیات نظامی فرهنگستان علوم آذربایجان حضور داشتیم.

رضا براهنی در مراسم ترحیم علی کمالی در تهران شرکت نکرده بود. دوستان گفتند که وضعیت خوبی ندارد و تحت تعقیب و فشار است. من با خانه‌اش تماس گرفتم و مدتی با او تلفنی صحبت کردم. از اینکه شعرهایش را نفرستاده بود، گله کردم. گفت وضعیتش اصلاً خوشایند نیست و ذهنش بسیار درگیر است و قول داد که به محض رفع گرفتاری‌ها، شعرهای جدیدی هم به زبان مادری بنویسد و برایم بفرستد.

مدتی بعد فهمیدم که رضا براهنی به کانادا مهاجرت کرده است. این ادیب که در ایران پایه‌گذار مدرنیسم محسوب می‌شود، در کانادا رئیس باشگاهPEN ، یعنی اتحادیهٔ نویسندگان، انتخاب شد.

رضا براهنی که در سال ۱۹۶۸ نتوانست کتاب «تاریخ مردانگی» را در ایران چاپ کند، به‌خاطر مقالهٔ «فرهنگ حاکم و محکوم» دستگیر و ۹ ماه در زندان نگهداری شد. او همراه با غلامحسین ساعدی، جلال آل‌احمد و احمد شاملو، از نویسندگان نوآور ایران بود که اتحادیهٔ نویسندگان را تأسیس کردند. رضا براهنی پیش از انقلاب اسلامی ایران نیز از رژیم شاه خسته شده بود و مهاجرت کرده بود. پس از انقلاب به وطن بازگشت، اما دوباره با فشارها، گرفتاری‌ها و زندان‌های پیشین روبرو شد و نتوانست همهٔ نوشته‌هایش را منتشر کند.

یک دو سال پس از آخرین مهاجرت‌اش به کانادا، کتابی را که روی کامپیوتر نوشته شده بود برایم فرستاد تا در باکو چاپ کنم. کتاب شامل ترجمهٔ شعرهای فارسی رضا براهنی به ترکی استانبولی بود. مشخص نبود که مترجم چه کسی است. نوشتم که نمی‌توانم آن کتاب را چاپ کنم و گفتم که همواره آماده‌ام شعرهای اصلی‌اش را که به ترکی آذربایجانی نوشته شده، چاپ کنم.

بعدها کتاب شعر او را به نام «پروانه» در ترکیه دیدم. این کتاب که در سال ۲۰۰۴ توسط انتشارات «کتاب‌های جهان» منتشر شده بود، شعرهای آن را هاشم خسروشاهی به ترکی استانبولی ترجمه کرده بود. بسیاری از شعرهای کتابی که برایم فرستاده شده بود را در کتاب «پروانه» دیدم.

پانوشت: در پاییز ۲۰۰۹، علیرضا اردبیلی ساکن سوئد با من تماس گرفت و گفت که رضا براهنی به همراه گروهی از شاعران مهاجر به آذربایجان خواهد آمد و می‌خواهد مرا نیز ببیند. با تأسف گفتم که در آن روزها در سمپوزیوم بین‌المللی «کوراوغلو، تاریخ و فرهنگ بولو» که توسط دانشگاه ابنت عزت بایسال بولو، مرکز تحقیقات و کاربردی فرهنگ عامهٔ بولو(BAMER) ، مؤسسهٔ فولکلور فرهنگستان علوم جمهوری آذربایجان و مؤسسهٔ زبان و ادبیات فرهنگستان علوم ازبکستان در شهر بولو ترکیه برگزار می‌شد، شرکت دارم و نمی‌توانم با آن‌ها دیدار کنم.

وقتی به باکو برگشتم، در روزنامه‌ها خواندم که رضا براهنی که به دعوت صابر رستم‌خانلی، هم‌رئیس کنگرهٔ جهانی آذربایجانی‌ها و نمایندهٔ مجلس، به آذربایجان سفر کرده بود، دکترای افتخاری دانشگاه اودلار یوردو (سرزمین آتش) را دریافت کرده است.

در باکو، کتابی به نام «رضا براهنی: شعرها، مصاحبه‌ها، پژوهش» به‌همت انتشارات صابر رستم‌خانلی (شاعر ملی) و با تدوین و ویرایش مسی‌آقا محمدی (نویسندهٔ ارشد مجلهٔ «باکی-تبریز») در انتشارات «قانون» چاپ شده است. او در دیدارها گفت که روی رمان سه‌بخشی «آیاز» به گستردگی ۲۵۰۰ سال کار می‌کند و بر اساس این آثار، ۶ نمایشنامه

تهیه شده و در فرانسه به نمایش درآمده است. هنگام صحبت از تکنیک نگارش رمان و خلاقیت هنری گفت: «من تاریخ را آن‌طور که خودم می‌دانم، می‌نویسم.»

اگرچه این ادیب به زبان مادری نمی‌نویسد، اما اندیشهٔ ملی خود را در آثار فارسی و انگلیسی‌اش به خواننده منتقل می‌کند. اثر او که به توصیف مرگ غم‌انگیز شاعر انقلابی و ترکی‌نویس، علیرضا نابدل اُوختای، در زندان ایران می‌پردازد، از جمله آثاری است که جوانان آذربایجانی با علاقه می‌خوانند.